**ASSR Mərkəzi İcraiyyə Komitəsinin və Xalq Komissarları Sovetinin 1929-cu il 2 mart tarixli "ASSR ərazisində narkotik vasitələrin istehsalının və ticarətinin tənzimlənməsi tədbirləri haqqında təlimat" qərarının və Azərbaycan SSR Nazirlər Sovetinin 1987-ci il 1 iyul tarixli, 233 nömrəli qərarının qüvvədən düşmüş hesab edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 4 avqust tarixli, 174 nömrəli Fərmanının birinci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. ASSR Mərkəzi İcraiyyə Komitəsinin və Xalq Komissarları Sovetinin 1929-cu il 2 mart tarixli "ASSR ərazisində narkotik vasitələrin istehsalının və ticarətinin tənzimlənməsi tədbirləri haqqında təlimat" qərarı qüvvədən düşmüş hesab edilsin.

2. "SSRİ Nazirlər Sovetinin 1987-ci il 12 iyun tarixli, 695 nömrəli "Vətəndaşlar tərəfindən yağlı xaşxaş əkilməsinin və becərilməsinin qadağan edilməsi barədə" qərarı haqqında" Azərbaycan SSR Nazirlər Sovetinin 1987-ci il 1 iyul tarixli, 233 nömrəli qərarı qüvvədən düşmüş hesab edilsin.

3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 13 iyul 2000-ci il
123